# Nazim Mirqasım oğlu Əfəndiyevin anadan olmasının 85-illiyi



Qırx ildən çox Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutuna rəhbərlik edən görkəmli oftalmocərrah, tibb elmləri doktoru, proffesor Nazim Mirqasım oğlu Əfəndiyevin bu il anadan olmasının 85 iliyi qeyd edilir

N.M.Əfəndiyev 1926-cı ilin iyun ayının 7-də Qazax şəhərində müəllim ailəsində anadan olmuş, 1943-cü ildə Qazax şəhər orta məktəbini fərqlənmə attestatı ilə bitirmişdir. Elə həmin ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1948-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. O bir il akademik M.Mirqasımovun başçılıq etdiyi hospital cərrahiyyə klinikasında ümumi cərrahiyyənin praktiki əsaslarını öyrənmişdir. 1950-1952-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun aspiraturasında hazırlıq keçmişdir. 1952-ci ildə bu institutun elmi işçisi olmuş, 1954-cü ildə isə institutun müalicə işləri üzrə direktor müavini təyin edilmişdir. 1957-ci ildən həmin institutun direktoru vəzifəsində çalışırdı.

1966-cı ildə N.M.Əfəndiyev "Göz almasının mühitlərinə kontuzion qansızmalar və autoqanın eksperimental daxil edilməsindən sonra şüşəvari cismin bəzi biokimyəvi göstəricilərinin dəyişiklikləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1974-cü ildə ona baş elmi işçi adı verilmişdir. N.M.Əfəndiyev "Eksperimental gözdaxili qansızma zamanı şüşəvari cismin struktur-funksional pozuntularında lipidlərin peroksidləşməsinin rolu» adlı doktorluq dissertasiyasiyalarını müdafiə etmişdir. N.M. Əfəndiyev 150-yə yaxın elmi əsərin, o cümlədən 3 monoqrafiya, 3 ixtira, 20-dən artıq metodik tövsiyələr, səmərələşdirici təkliflərin müəllifidir. Onun elmi-tədqiqat işləri əsasən göz almasının müxtəlif patologiyası zamanı şüşəvari cismin biokimyəvi, biofiziki və morfoloji xüsusiyyətlərinin öyrənilməsinə, eləcə də süni optik konstruksiyalardan və müasir plastik materiallardan istifadə etməklə göz almasında reabilitasiya xarakterli optiki-rekonstruktiv mikrocərrahi əməliyyatların yeni üsullarının işlənib hazırlanmasına həsr olunub. N.M.Əfəndiyevin elmi ideyaları, göz almasının şüşəvari cisminin klinik və fiziki-kimyəvi dəyişikliklərinin problemi ilə məşğul olan elmi məktəbin yaradılması üçün

əsas olmuşdur. Onun ideyaları tələbələrinin işlərində də inkişaf etdirilir. N.M.Əfəndiyevin rəhbərliyi altında 13 namizədlik və 1 doktorluq dissertasiyası müvəffəqiyyətlə müdafiə olunmuşdur.

N.M.Əfəndiyev öz əsərləri ilə mütəxəssislər içərisində böyük hörmət qazanmışdır. Dərslik və xüsusi ədəbiyyatda onlara tez-tez istinad edilir.

Prof. N.M.Əfəndiyevin redaktorluğu ilə institutun elmi əsərlər məcmuəsinin 16 cildi nəşr edilmişdir.

N.M.Əfəndiyev ali məktəb üçün 1986-cı ildə çap olunmuş Z.T.Quliyeva və P.X.Zairovanın "Göz xəstəlikləri" dərsliyinin elmi redaktorudur.

Respublikada gözün mikrocərrahiyyəsi üsullarını ilk tətbiq edən yüksəkixtisaslı oftalmocərrah N.M.Əfəndiyev öz praktiki fəaliyyətində bu elmi yeniliklərdən geniş istifadə edib. İnstitutda işlədiyi müddətdə gözün müxtəlif strukturlarında katarakta, qlaukoma, iltihab xəstəlikləri, göz almasının travmatik zədələnmələri, anadangəlmə anomaliyalar, yenitörəmələr və görmə üzvünün digər patologiyası ilə əlaqədar 10 minlərlə cərrahi əməliyyatlar aparmışdır. Elmi təşkilat sahəsində N.M.Əfəndiyev böyük nailiyyətlər əldə edib. O, respublikada traxoma xəstəliyinin aradan götürülməsinin aktiv təşkilatçılarından biri olub. Onun təşəbbüsü və bilavasitə iştirakı ilə institutda oftalmoloji yardımın elmi-praktiki mərkəzi kimi Respublika gözün mikrocərrahiyyəsi mərkəzi, respublika Oftalmoloji Lazer Mərkəzi yaradılmışdır. İnstitutda gözün patologiyası zamanı biokimyəvi, histokimyəvi, elektron-mikroskopik, immunoloji, ultrasəs, elektrofizioloji, kontrast müalicə metodlarını kütləvi şəkildə tətbiq etməyə imkan verən müxtəlif laboratoriyalar təşkil edilmişdir. Refraksiya anomaliyalarının cərrahi korreksiya mərkəzinin yaradılması nəzərdə tutulmuşdur.

N.M.Əfəndiyevin elmi kadrların hazırlanmasında böyük rolu olub. Onun rəhbərlik etdiyi müddətdə institutda 11 doktorluq, 65 namizədlik dissertasiyası müdafiə edilmişdir. O, institutda kadrların elmi və praktiki potensialının artması üçün hər cür şərait yaratmışdır. N.M.Əfəndiyevin təşəbbüsü və bilavasitə başçılığı altında 1976-cı ildən institutda göz almasında mikrocərrahi əməliyyatların müasir metodlarına yiyələnmiş mütəxəssislər hazırlanmışdır. İnstitutun bazasında 1983-cü ildə M.Əfəndiyevin təşəbbüsü ilə oftalmoloqların internaturası təşkil olunmuşdur. N.M.Əfəndiyev internaların, kliniki ordinatorların, digər gənc oftalmoloqların hazırlığında yaxından iştirak edib.

N.M.Əfəndiyevin təşəbbüsü və rəhbərliyi altında xarici ölkələrdən (Türkiyə, İran, İraq, İordaniya) gələn 20 nəfərdən artıq gənc oftalmoloq kadrları hazırlanmışdır.

N.M.Əfəndiyevin rəhbərliyi və iştirakı ilə institutun bir qrup işçiləri Respublika Elmlər Akademiyasının Botanika və Fiziologiya İnstitutlarının əməkdaşları ilə birlikdə zəfəran ekstraktının gözün tor qişasının müxtəlif distrofiyalarında müalicə məqsədilə tətbiqi bir çox illər ərzində kliniki morfoloji cəhətdən öyrənilmişdir. Bu tədqiqata görə müəllif şəhadətnaməsi alınmışdır.

Prof. N.M.Əfəndiyevin təşəbbüsü və təşkilatçılıq qabiliyyəti sayəsində Rusiya Federasiyasının "Gözün mikrocərrahiyyəsi" SETK, Rusiya Federasiyası Tibb Elmləri Akademiyasının ETGXI, Helmhols adına Moskva ETGXİ, V.P.Filatov adına Odessa Göz Xəstəlikləri və Toxuma Terapiyası İnstitutu, MDB-nin başqa oftalmoloji mərkəzləri, Türkiyənin bir neçə məşhur oftalmoloji klinikaları, Almaniya Federattiv Respublikasının

Şloss-Park klinikası və digər xarici oftlamoloji mərkəzlər ilə elmi və praktiki əlaqələr yaradılmışdır.

Prof. N.M.Əfəndiyev öz elmi-praktik işi ilə yanaşı geniş ictimai fəaliyyətlə məşğul olub, 25 ildən artıq o, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Baş oftalmoloqu, Elmi Tibbi Şurasının Rəyasət heyətinin üzvü, oftalmologiya üzrə respublika Attestasiya Komissiyasının sədri olub. N.M.Əfəndiyev 1969-1973-cü illərdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda iştisaslaşdırılmış şuranın üzvü olmuşdur, 1993-cü ildən N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetində ixtisaslaşdırılmış şuranın üzvü, 1996-cı ildən isə oftalmologiya üzrə İxtisaslaşdırılmış şuranın sədri vəzifəsində çalışmışdır.

Prof. N.M.Əfəndiyev uzun müddət ərzində oftalmoloqların Ümumittifaq elmi cəmiyyətinin idarə heyətinin üzvü, Rusiya Federasiyasının Tibb Elmləri Akademiyasında oftalmologiya üzrə Elmi şurasının üzvü olmuşdur.

N.M.Əfəndiyevin uzun illik qüsursuz əməyi bir sıra dövlət mükafatları ilə qiymətləndirilmişdi. O, «Şərəf nişanı» ordeni, "Əməkdə fərqlənməyə görə" medalı, «Əmək veteranı» medalı, «Səhiyyə əlaçısı» döş nişanı, Səhiyyə Nazirliyinin Fəxri fərmanı, Səhiyyə Nazirliyinin və Tibb işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri fərmanı, 1989-cu ildə N.M.Əfəndiyev "Azərbaycan SSR-in Əməkdar həkimi" fəxri adına layiq görülmüş, 1991-ci ildə o, Türkiyə Hərbi-Tibb Akademiyasının fəxri döş nişanı ilə mükafatlandırılmışdır.

## К 85-летию со дня рождения Назима Миркасим оглы Эфендиева.

В этом году отмечается 85 летие со дня рождения видного офтальмохерурга, доктора медицинских наук, профессора Назим Миркасим оглы Эфендиева, более 40 лет возглавлявшего Азербайджанский Научно-Иследовательский Институт Офтальмологии.

Назим Миркасим оглы Эфендиев родился 7 июня 1926 года в г. Казахе в семье учителя. В 1943 году окончил Казахскую среднюю школу с отличием, в том же году поступил на лечебно-профилактический факультет Азербайджанского Государственного медицинского института им. Н.Нариманова, который окончил с отличием в 1948 году. В течение года проходил основы практической хирургии в хирургической клинике, руководимой академиком М.Миркасимовым. В 1950-1952гг. прошел подготовку в аспирантуре Азербайджанского НИИ офтальмологии, в 1952 году стал научным сотрудником института, в 1954 – заместителем директора института по научной работе, а в 1957 году возглавил институт офтальмологии.

В 1966 году Н.М.Эфендиев защитил кандидатскую диссертацию на тему «Изменения некоторыех биохимических показателей стекловидного тела при контузионных кровоизлияниях и экспериментальном введении аутокрови в среды глазного яблока», а в 1993 – докторскую диссертацию на тему «Роль перекисного окисления липидов в структурно-функциональных изменениях стекловидного

тела при экспериментальном внутриглазном кровоизлиянии». В 1993 году он был удостоен ученого звания профессора. Н.М.Эфендиев является автором более 150 научных трудов, в том числе 3 монографий, 3 изобретений, более 20 рацпредложений. Его научно-исследовательские работы посвящены, в основном, биохимическим, биофизическим и морфологическим особенностям стекловидного тела при различной патологии глаза, а также разработке новых методов оптико-реконструктивных микрохирургических операций на глазном яблоке реабилитационного характера с использованием искусственных оптических конструкций и пластических материалов. Идеи Н.М.Эфендиева, касающиеся этих областей офтальмологии, стали основой для создания целой научной школы, занимающейся проблемами клинических и физико-химических изменений стекловидного тела при внутриглазных кровоизлияниях. Под руководством проф. Эфендиева были защищены 1 докторская и 13 кандидатских диссертаций. Труды Н.М.Эфендиева представляют большой научный интерес, в учебниках и специальной литературе часто ссылаются на них.

Под редакцией проф. Н.М.Эфендиева был издан 16-томный сборник научных трудов института. Проф. Н.М.Эфендиев также являлся научным редактором выпущенного в 1986 году учебника З.Т.Кулиевой и П.Х.Заировой «Глазные болезни». Высококвалифицированный офтальмохирург, Н.М.Эфендиев первым в республике применил методы микрохирургии глаза в своей практике. За годы работы им было проведено более тысячи операций на глазном яблоке при катаракте, глаукоме, травмах глазного яблока, воспалительных заболеваниях глаза, врожденных аномалиях, новообразованиях и другох патологиях органа зрения. Н.М.Эфендиев был одним из организаторов борьбы с трахомой в республике. По его инициативе и при его непосредственном участии в институте были созданы Республиканский Офтальмологический Лазерный Центр и Республиканский Центр Микрохирургии Глаза, а также целый ряд лабораторий и кабинетов, позволивших осуществлять биохимические, гистохимические, электронно-микроскопические, иммунологические, цитологические, ультразвуковые, электрофизические и контрастные методы исследования при различной глазной патологии. Большая роль принадлежит Н.М.Эфендиеву в подготовке офтальмологических кадров для республики. Он создал в институте самые благоприятные условия для роста научных и практических кадров. За годы его руководства в институте были защищены 11 докторских и 65 кандидатских диссертаций. По его инициативе и под его непосредственным руководством с 1976 года в институте началась подготовка кадров микроофтальмохирургов. В 1983 году на базе института была организована интернатура. Проф. Н.М.Эфендиев принимал непосредственное участие в подготовке интерн, клинических ординаторов, молодых офтальмологов. По его инициативе и под его руководством были подготовлены более 20 молодых специалистов, из Турции, Ирана, Ирака, Иордании. Под его руководством группой специалистов института совместно с сотрудниками Института Ботаники и Физиологии АН Азербайджана в течение многих лет проводились исследования лечебного воздействия шафрана при различных дистрофиях сетчатки глаза, за которые было получено авторское свидетельство. По инициативе проф. Н.М.Эфендиева были

установлены тесные научно-практические связи с МНТК «Микрохирургия глаза» РФ, НИИ Академии медицинских наук РФ, Московским НИИ имени Гельмгольца, Одесским Институтом глазных болезней и тканевой терапии имени В.П.Филатова, другими офтальмологическими центрами СНГ, с некоторыми известными центрами офтальмологии Турции, клиникой Шлосс-Парк ФРГ и другими зарубежными центрами офтальмологии. Наряду с научно-практической работой он занимался и общественной деятельностью, более 25 лет являясь главным офтальмологом Министерства здравоохранения Азербайджанской республики, членом правления Ученого медицинского совета Министерства здравоохранения, председателем Республиканской аттестационной комиссии по офтальмологии.

В 1969-1973гг. Н.М.Эфендиев являлся членом Специализированного совета по офтальмологии при Азербайджанском Государственном институте усовершенствования врачей им. А.Алиева, с 1993 года – членом Специализированного совета при Азербайджанском медицинском университете, с 1996 года занимал пост председателя Специализированного совета по офтальмологии. Многие годы проф. Н.М.Эфендиев был членом правления Всесоюзного научного общества офтальмологов, членом Научного совета по офтальмологии при АМН Российской Федерации.

За многолетний безупречный труд проф. Н.М.Эфендиев награжден орденом «Знак почета», нагрудным знаком «Отличник здравоохранения», Почетными грамотами Министерства здравоохранения Республики, а в 1989 году был удостоен звания заслуженного врача республики. В 1991 г. Н.М.Эфендиев был награжден почетным нагрудным знаком Военно-медицинской академии Турции.

# To the 85th anniversary of the birth of Nazim Mirkasym oglu Efendiyev.

This year marks the 85th anniversary of the birth of the MD, Professor Nazim Mirkasym oglu Efendiyev   the man who more than 40 years was at the head of the Azerbaijan Scientific Research Institte of Ophthalmology.

Nazim Mirkasym oglu Efendiyev was born on June 7, 1926 in Gazakh town in the teacher's family. In 1943 he graduated from the Gazakh comprehensive school with honors, the same year he entered the medical-prophylactic faculty of Azerbaijan State Medical Institute named after Narimanov N., which he graduated from with honors in 1948. For one year he mastered the practical basics of surgery in the surgical clinic, headed by academician Mirkasimov M. In 1950-1952 he was a postgraduate at the Azerbaijan Scientific Research Institute of Ophthalmology, in 1952 he became a researcher at the Institute, in 1954 he became deputy director of the institute for Science and in 1957 he headed the Institute of Ophthalmology.

In 1966 Efendiyev N.M. defended his thesis on «Changes of some biochemical parameters of vitreous in contusion hemorrhage and experimental introduction of autologous blood in the medium of the eyeball» and in 1993 his doctoral thesis on «Role

of lipid peroxidation in the structural and functional changes in the vitreous body in experimental intraocular hemorrhage». In 1993 he was awarded with the academic title of professor. Efendiyev N.M. is the author of more than 150 scientific papers, including 3 monographs, 3 inventions, and more than 20 innovations. His research work is mainly devoted to biochemical, biophysical and morphological characteristics of the vitreous body in various eye pathologies, as well as to developing of new methods of optical and reconstructive microsurgical operations on the eyeball of rehabilitative character using artificial optical structures and plastic materials. Ideas of Efendiyev N.M. relating to these areas of ophthalmology became the basis for creating a whole scientific school, dealing with the problems of clinical and physico-chemical changes of the vitreous in intraocular hemorrhages. Under the guidance of prof. Efendiyev 1 doctoral and 13 master's theses were protected. Scientific works of Efendiyev N.M. are of great authority among the experts.

The textbooks and the literature often refer to these works. Edited by prof. Efendiyev N.M. a 16-volume collection of research papers of the Institute was issued. Prof. Efendiyev N.M. is also a scientific editor of the textbook by Guliyeva Z.T. and Zairova P.H. «Eye diseases» published in 1986. The ophthalmosurgeon of high quality Efendiyev N. M. was the first in the country to apply eye microsurgery techniques in his practice. Over the years he made thousands of operations on the eyeball in cataracts, glaucoma, injuries of the eyeball, eye inflammatory diseases, congenital anomalies, tumors and other eye pathologies. Efendiyev N.M. was one of the organizers of trachoma control in the country. On his initiative and with his direct participation the National Ophthalmic Laser Center and National Center of Eye Microsurgery were created in the institute, as well as a number of laboratories and consulting rooms that made it possible to carry out biochemical, histochemical, electron microscopic, immunological, cytological, ultrasound, electrophysical and contrasting techniques of studies in various eye pathology. Efendiyev N. M. played a major role in training of ophthalmic personnel for the country. He created the most favorable conditions for the growth of scientific and practical training in the institute. During the years of his leadership at the institute 11 doctoral and 65 master's theses were defended. On his initiative and under his direction since 1976 the institute started the training of microophthalmosurgeons. In 1983 on the basis of the Institute the internship was organized. Prof. Efendiyev N.M. was directly involved in the training of the interns, clinical residents, and young ophthalmologists. On his initiative and under his guidance more than 20 young professionals were prepared who came from foreign countries (Turkey, Iran, Iraq, Jordan). Under his leadership a group of specialists of the Institute jointly with the Institute of Botany and Physiology of the Academy of Sciences of Azerbaijan for many years conducted research on the therapeutic effect of saffron in different retinal dystrophies. The author's certificate was obtained for these studies. At the initiative of prof. Efendiyev N. M. there were also established close scientific and practical connection with the IRTC «Eye Microsurgery» of Russia, Research Institute of the Academy of Medical Sciences of Russia, Moscow Helmholtz Research Institute, Odessa Institute of Eye Diseases and Tissue Therapy named after Filatov V.P., other CIS ophthalmology centers, some well-known centers of ophthalmology in Turkey, Schloss Park Klinikum Germany and other foreign centers of ophthalmology. Along with the

scientific and practical work he was involved in social activities and for more than 25 years he was chief ophthalmologist of the Ministry of Health of the Azerbaijan Republic, a board member of the Academic Medical Board of the Ministry of Health, the chairman of Republican Certification Commission for ophthalmology.

In 1969-1973 Efendiyev N. M. was a member of the Specialized Council on Ophthalmology at the Azerbaijan State Institute of Postgraduate medical training named after Aliyev A., from 1993 a member of the Specialized Council of the Azerbaijan Medical University, from 1996 he was chairman of the Specialized Council of Ophthalmology. For many years prof. Efendiyev N.M. was a board member of the All-Union Scientific Society of Ophthalmologists, a member of the Scientific Council of Ophthalmology in the Academy of Medical Sciences of the Russian Federation.

For long-term quality work Professor Efendiyev N. M. was awarded with the order «Badge of Honor», breastplate «Excellent Health», certificates of honor of the Ministry of Health of the Republic, and in 1989 he was awarded with the title of Honored Doctor of the Republic. In 1991 Efendiyev N.M. was awarded with the honorary breastplate of the Turkish Military Medical Academy.